**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏZİZƏ CƏFƏRZADƏ NƏSRİNDƏ TARİXİ VƏ BƏDİİ GERÇƏKLİYİN İNİKASI

İxtisas: 5716.01 - Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Ayna Çingiz qızı Babazadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Xəzər Universitetinin "Dillər və ədəbiyyatlar" departamentində yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Bədirxan Balaca oğlu Əhmədov**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**Vaqif Soltan oğlu Verdiyev**

Filologiya elmləri doktoru, professor
**Təyyar Salam oğlu Cavadov**

Filologiya üzrə fəlsəfə doktoru
**Fidanə Vəli qızı Musayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 - Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlumdur ki, tarixi keçmişə müraciət hər zaman aktual məsələlərdən biri olub. Keçmişdə baş vermiş hadisələr, adət-ənənələr, milli-mənəvi dəyərlər və s. hər zaman yazarların bədii tədqiqat obyektinə çevrilib. XX əsrin 30-cu illərinin başlanğıcında M.S.Ordubadi və Y.V.Çəmənzəminli ilə yola çıxan tarixi roman janrı çox az müddətdə böyük bir inkişaf yolu keçib. Anatoli Zöhrabbəyov, Mirzə İbrahimov, Mir Cəlal, Ənvər Məmmədxanlı, Əyyub Abbasov, Çingiz Hüseynov, İsmayıl Şıxlı, İsa Hüseynov, Fərman Kərimzadə, Əlisa Nicat, Cəlal Bərgüşad, Mövlud Süleymanlı, Mahmud İsmayılov və b. tərəfindən davam etdirilən bu janr məzmun, forma, süjet, struktur baxımdan dəyişmiş və yenilənmişdir. Tarixə, xalqın keçmişinə müraciət son bir əsrdə ən aktual mövzulardan biri olub. Bu, həm də sovet siyasi sistemində unutdurulmağa çalışılan tariximizin yenidən bədii şəkildə yazılması, tarixi-bədii salnaməsinin yaradılması deməkdir. Sovet dövründə bu məsələyə xüsusi diqqət yetirən Azərbaycan rəhbəri Heydər Əliyev Azərbaycan yazıçılarının VII qurultayında tarixi mövzuda yazmağın ciddiliyini önə çəkərək demişdir: *"...tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır"*.[1]

Mövzunun aktuallığı onunla şərtlənir ki, keçmişə, tarixə münasibət müasirlik amili ilə həmişə qoşa çıxış edir. Gələcəyi təşkil etmək üçün keçmişini öyrənmək lazım gəlir. Bu mənada xalqın tarixini, etnogenezini, keçdiyi həyat yolunu, tarixdə baş vermiş hadisələri, müxtəlif zamanlarda rol oynamış şəxsiyyətləri mənbələrin və bədii təxəyyül vasitəsilə canlandırmaq əsas məsələlərdən biridir. Ömrünün altmış ildən çoxunu yaradıcılığa, yaradıcılığını isə tarixi mövzuya həsr edən Əzizə Cəfərzadə iyirmiyə qədər tarixi səpkili əsərin müəllifidir. "Aləmdə səsim var mənim" (1973-1978), "Vətənə qayıt" (1977), "Bakı-1501" (1981), "Cəlaliyyə" (1983), "Sabir" (1989), "Gülüstandan öncə" (1996), "Eldən-elə" (1992), "Bir səsin faciəsi" (1995), "Zərrintac-Tahirə" (1996), "İşığa doğru" (1998),

[1] Əliyev, H. Azərbaycan yazıçılarının VII qurultayında çıxışı // Kommunist. - 1981, 8 iyun. - s. 1-3

“Rübabə Sultanım” (2001) və s. tarixi romanlarında Azərbaycan tarixinin müxtəlif dövrləri, tarixi hadisələri, ədəbi şəxsiyyətləri təsvir olunur. Yazıçı bu əsərlərində bir çox tarixi şəxsiyyətlərə, baş vermiş hadisə və gerçəkliklərə bədii həyat vermişdir. Ə.Cəfərzadə nəsrində tarixi və bədii gerçəkliyin araşdırılması, dəyərləndirilməsi ədəbiyyatşünaslığımızın qarşısında duran aktual məsələlərdən biridir. Yazıçının tarixi əsərləri təkcə ideya, məzmun və sosioloji səciyyəsi ilə deyil, həmçinin bədii-estetik ruhu ilə də müasirliyini və aktuallığını qoruyub saxlayır.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Ə.Cəfərzadənin yaradıcılığı boyu milli tarixə önəm verməsi və tariximizin müxtəlif mərhələlərinin bədii səlnaməsini yaratmasıdır.

Ə.Cəfərzadənin həyatı, tarixi romanları, əsərlərindəki obrazlar, xarakterlər aləmi və ümumiyyətlə, ədəbi-tarixi fəaliyyəti haqqında o qədər də geniş və hərtərəfli araşdırmalar aparılmayıb. Dövrün ədəbi tənqidi onun əsərləri, yaradıcılığı haqqında çox az hallarda ayrıca məqalə, yaxud araşdırma aparıb. Yalnız tarixi əsərlər haqqında yazılan icmal məqalələrdə onun əsərlərinə də müəyyən yer verilib. Lakin bu məqalələrdə yazıçı çox zaman tənqid edilib. Bu tənqidlər yazıçı yaradıcılığında bədii həqiqətin zəifliyi, tarixin təhrifi, etnoqrafizmin bolluğu kimi məsələləri əhatə etmişdir. Əlbəttə, demək olmaz ki, ədəbi tənqid bu məsələdə tamamilə haqsız olmuşdur, bəzi haqlı cəhətləri yox deyildi. Lakin yazıçının tarixi roman janrına gətirdiyi sərbəstlik, yenilik, bədii təxəyyülə üstünlük vermək (tarixi roman janrının sonrakı inkişaf xətti yazıçının nə qədər haqlı olduğunu göstərdi) konseptinə kompleks yanaşma və dəyərləndirmə bəzən doğru başa düşülmürdü. Ə.Cəfərzadənin tarixi romanlarını ayrı-ayrı dövrlərdə Yavuz Axundlu, Akif Hüseynov, Vaqif Sultanlı, Vilayət Quliyev, Nazif Qəhrəmanlı və digər ədəbiyyatşünas və tənqidçilər müxtəlif problemlər baxımından təhlil etmiş və qiymətləndirmişlər. Yazıçı haqqında problematik araşdırmalar 2000-ci illərdən sonra yazılmağa başlanmışdır. İfrat Əliyevanın “El anası - Əzizə Cəfərzadə” (2001), Arif Zeynallının “Qüdrətli sənətkar” (2001), Pərvanə Bayramın “Azize Caferzade hayatı, edebi şahsiyeti, hikayelerinin incelenmesi” (2013), Əli Həşimin “Əzizə Cəfərzadə yaradıcılığında tarixi povest” (2017), Əhməd Sami Elaydinin

“Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” (2017) və digər tədqiqatlarda Əzizə xanımın tarixi əsərlərinə bu və ya digər dərəcədə yer verilmişdir. Asifə Telman qızı Əliyeva “Əzizə Cəfərzadənin bədii yaradıcılığı” adlı fəlsəfə doktorluğu dissertasiyasında yazıçının yaradıcılığını ümumi təhlil obyektinə çevirmişdi. Həmçinin Türkiyə tədqiqatçısı Murat Değerin “Samiha Ayverdi və Əzizə Cəfərzadənin tarixi roman janrının inkişafında və formalaşmasında rolu” adlı fəlsəfə doktorluğu dissertasiyasında məşhur türk yazçısı Semiha Ayverdinin tarixi romanları ilə Ə.Cəfərzadənin tarixi romanları paralel şəkildə təhlil edilmişdir. Tədqiqata cəlb edilən əsərlərlə bağlı ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif məqalələr yazılmışdır. Lakin Ə.Cəfərzadə nəsrinin böyük bir qismini təşkil edən tarixi əsərlərdə tarixi və bədii gerçəklik problemi fundamental şəkildə araşdırılmayıb. Dissertasiyada məhz bu kimi səciyyəvi məsələlər sistemli olaraq tədqiqata cəlb edilir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Əzizə Cəfərzadənin bədii nəsridir. Yazıçı öz yaradıcılığında tarixiliklə bədii gerçəkliyi sintez şəklində yaradıcılıqla verə bilmişdir. Buna görə də dissertasiyanın predmeti kimi Ə.Cəfərzadə nəsrində bədii nəsrdə yaradıcı şəkildə istifadə edilmiş tarixi gerçəklik və bədii həqiqət problemi nəzərdə tutulmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin məqsədi Ə.Cəfərzadə nəsrində tarixi həqiqət və bədii gerçəkliyi, tarixi hadisələrin əks olunmasında mənbə və bədii təxəyyülün rolunu araşdırmaq, yazıçının yaradıcılığında tarixi mövzuların yerini və mövqeyini müəyyənləşdirməkdir. Dissertasiyada əsas məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr ön plana çəkilir:

– Ə.Cəfərzadə nəsrində tarixi gerçəklik və bədii həqiqət problemini elmi-nəzəri kontekstdə araşdırmaq;

– Ə.Cəfərzadə yaradıcılığında tarixi mövzunun yeri və mövqeyini müəyyənləşdirmək;

– Yazıçının hekayə və povestlərində tarixi gerçəklik və bədii həqiqət problemini araşdırmaq;

– Tarixi hadisələrin təsvirində mənbə və bədii təxəyyülün rolunu araşdırmaq;

– “Şirvan” trilogiyasında tarixi hadisə və bədii həqiqət problemini araşdırmaq;

– Yazıçının nəsrində ədəbi və tarixi şəxsiyyətlərin bədii obrazını tədqiq etmək;

– Ə.Cəfərzadənin müstəqillik dövrü nəsrində tarixi hadisələrin bədii əksini təhlil obyektinə çevirmək;

– Sovet gerçəkliyinin təsvirində tarixilik və bədiiliyin sintezini müəyyən etmək və s.

**Tədqiqat metodları.** Tədqiqat işində tarixi-müqayisəli və analitik metoda üstünlük verilmişdir. Bu metodla yazıçının əsərlərində tarixilik və bədii gerçəklik problemi tədqiq və təhlil olunmuşdur. Tarixilik və bədii həqiqət yalnız praktik deyil, həm də nəzəri kontekstdə öyrənilir. Ə.Cəfərzadə tarixi romanlarının janr xüsusiyyətləri və tipologiyası bu əsərləri tarixi materiala yazıçı münasibəti kontekstində araşdırmağa imkan verir. Ə.Cəfərzadənin tarixi romanlarında tarixi varlığın mahiyyəti, epoxanın ruhu, hadisələrə münasibətdə bədii təxəyyülün rolu kimi problemlər müqayisəli və nəzəri şəkildə ortaya çıxır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada Əzizə Cəfərzadənin tarixi səpkili əsərləri tədqiqata cəlb edilmişdir. Əsas məsələ yazıçının əsərlərindəki tarixi faktların mənbələrlə üst-üstə düşməsini və ya yazıçının qələmə aldığı hadisələrin bədii təxəyyülünün məhsulu olmasını, gerçəkliyə bədii yanaşmasını aşkarlamaqdır. Yazıçının tarixi mövzuda daha çox romanlar yazmasına baxmayaraq, onun bu səpkidə hekayə və povestləri də var ki, həmin əsərlər də tədqiqata cəlb edilmişdir. Yazıçının bütün yaradıcılığını əhatə etməklə aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

– Bədii nəsrdə tarixi gerçəklik və bədii həqiqət probleminə nəzəri baxış.

– Ə.Cəfərzadənin tarixi mövzulu əsərlərində tarixilik və bədiilik.

– Hadisə və obrazların traktovkasında tarixi gerçəklik və bədii həqiqətin sintezi.

– Əsərdə tarixin təhrifi probleminə yeni baxış.

–Tarixi romanların janr xüsusiyyətlərinin tədqiqi.

– Sovet gerçəkliyinin təsvirində tarixi yaddaşın bərpası.

– “Şirvan” trilogiyasında tarixi hadisə və obrazların tədqiqi.

– Ə.Cəfərzadə tarixi romanlarına ədəbi tənqid və ədəbiyyatşünaslığın münasibəti.

– Yazıçının tarixi mənbə və bədii təxəyyül probleminə münasibətinə nəzəri baxış.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işinin elmi yeniliyi onunla şərtlənir ki, ilk dəfə olaraq yazıçının tarixi mövzulu əsərləri ədəbiyyatşünaslıq baxımından təhlilə cəlb edilir və müxtəlif nəticələrə gəlinir. Belə bir qənaət ortaya çıxır ki, vaxtilə ədəbi tənqidin yazıçının həddən artıq bədiiliyə və yaxud tarixiliyə meyil etməkdə günahlandırmasının əsasında tarixi roman janrının yenicə formalaşmaqda olan xüsusiyyətləri əksini tapmışdır. Tarixi əsərdə bədii təxəyyülə sərbəstlik tarixi romanın sonrakı inkişaf prosesində özünə vətəndaşlıq hüququ qazanmışdır.

Dissertasiyanın elmi yeniliklərindən biri də, yazıçının tarixi faktlara yanaşmasını, hadisə və şəxsiyyətlərin təsvirində tarixiliklə bədii təxəyyüldən istifadənin tənasübünü təhlillər əsasında ortaya çıxarmaqdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Dissertasiya işi həm nəzəri, həm də təcrübi əhəmiyyət daşıyır. Bu işdə yazıçının tarixi hadisələri əks etdirməsi, ona münasibəti ilə yanaşı, bədii gerçəklik problemi də araşdırılır. Bu problemlər Azərbaycan ədəbiyyatında nəzəri baxımdan çox az işlənilmişdir. Həm Azərbaycan tarixi romanlarında, həm də Ə.Cəfərzadə yaradıcılığında problemə kompleks baxış dissertasiyanın nəzəri əhəmiyyətini artırır.

Dissertasiya həm də təcrübi əhəmiyyətə malikdir. Belə ki, tarixi şəxsiyyətləri tarixin, ədəbi şəxsiyyətləri ədəbiyyatın tədrisi prosesində əsas mənbələrdən biri kimi istifadə etmək olar. Tədqiqat işindən yazıçı və tarix, tarixi roman, tarixi təhrif, bədii əsərdə tarixə baxış, keçmişin təsvirində bədii təxəyyülün rolu, tarixi gerçəklik və bədii həqiqət kimi məsələlərdə əhəmiyyətli mənbə ola bilər.

Tədqiqat işindən ali məktəblərdə ədəbiyyatın tədrisi zamanı da istifadə oluna bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiyanın əsas məzmunu, elmi müddəa və nəticələri doktorantın AAK tərəfindən tövsiyə edilən dövrü elmi nəşrlərdə və impakt faktorlu, istinad indeksli jurnallarda,

eləcə də beynəlxalq və respublika səviyyəli konfranslarda etdiyi məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentində hazırlanıb müzakirə edilmişdir. Dissertasiyanın mövzusu indiyədək ayrıca tədqiqat obyekti olmamışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

Dissertasiya giriş (12737 şərti işarə), üç fəsil (birinci fəsil iki paraqraf – 77234 şərti işarə, ikinci fəsil iki paraqraf – 103259 şərti işarə, üçüncü fəsil iki paraqraf – 83625 şərti işarə), nəticə (9696 şərti işarə), istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi 287958 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində tədqiqat işinin ümumi səciyyəsi verilmiş, mövzunun aktuallığı və nəzəri-praktik əhəmiyyəti əsaslandırılmış, əsas müddəalar, qarşıya qoyulan məqsəd və vəzifələr müəyyənləşdirilmiş, problemin işlənmə dairəsi araşdırılmış, elmi yeniliyi, metodologiyası səciyyələndirilmiş, aprobasiyası və strukturu qeyd edilmişdi.

**"Əzizə Cəfərzadə nəsrində tarixi gerçəklik və bədii həqiqət problemi"** adlanan I fəsil iki paraqrafdan ibarətdir. **"Tarixi gerçəklik və bədii həqiqətin sərhədləri"** adlı birinci paraqrafda keçmişə müraciətin səbəbləri, tarixi gerçəkliklə bədii həqiqətin sərhədləri ilə bağlı nəzəri məlumat verilir. Qeyd olunur ki, yazıçı tarixçidən fərqli olaraq keçmişə daha çox bədii təxəyyülün gözü ilə baxır, tarixi məna və məzmun daşıyan hadisə və faktlara yeni don geyindirir. Yəni yazıçı tarixi olduğu kimi göstərməkdən daha çox, yaşanmış tarixə yeni məna və ruh verərək müasirlərinə çatdırır. Polşa yazıçısı Tadueş Qolıya görə tarixə müraciət müasir hadisələrin

mənasını daha dərindən açmaq və anlamaq üçündür. [1]

Tarixin bədii düşüncəyə nüfuzu böyük olsa da, tarixi həqiqətlə bədii təxəyyülün sərhədlərini bir-birilə qarışdırmaq olmaz. Yazıçı əsərdə bədii təxəyyülün gücü ilə keçmişin üstünü örtən zülmət pərdəsini götürərək, tarixin ziddiyyətli, mürəkkəb və dolaşıq hadisələrinin üzərinə işıq salır, bədii təsvir yolu ilə tarixi canlandırmağa, göz önünə gətirməyə nail olur. Tarixçi ilə yazıçının obyektləri bir olsa da, əllərindəki təsvir imkanları, formaları müxtəlifdir; tarixçi faktlara, yazıçı isə faktlarla yanaşı, bədii təxəyyülə söykənir. Burada tarixçi ilə yazıçının, tarixlə bədii təxəyyülün sərhədləri müəyyənləşir.

M.S.Ordubadi, Y.V.Çəmənzəminli, A.Zöhrabbəyov, M.Cəlal, M.Hüseyn, İ.Hüseynov, İ.Şıxlı, Ə.Cəfərzadə, F.Kərimzadə, Ə.Nicat, C.Bərgüşad, M.İsmayılov, Ç.Hüseynov və b. yazıçılar tarixi düşüncə vüsətinin təsvirinə üstünlük vermişlər. Azərbaycan ədəbiyyatşünaslığında hələ də tarixi gerçəkliklə bədii həqiqət problemi geniş tədqiqat obyekti olmadığından hər yeni tarixi əsər yazılarkən tarixçi ilə yazıçı, yaxud yazıçı ilə tədqiqatçı arasında mübahisə yaratmış olur. Tənqidçi və ədəbiyyatşünaslardan Y.Axundlu, A.Hüseynov, N.Qəhrəmanlı, B.Əhmədov, B.Əsgərov və b. gerçəklik və bədii həqiqət probleminin inikası ilə bağlı maraqlı tədqiqatlar aparmış, bəzi nəzəri fikirlər söyləmişlər. Prof. Yavuz Axundlu araşdırmalarında problemə kompleks yanaşmış, yazıçının həm tam gerçəkliyə əsaslanmalı, həm də bədii həqiqəti əks etdirməli olduğunu müdafiə edərək belə bir nəticəyə gəlmişdir: "*...tarixi inkişafın müəyyən bir dövrü üçün olub bitmiş hadisələr əks edilməli, janrın fəlsəfi əsası kimi tarixilik prinsipi gözlənilməli və təsvir olunan dövrün koloriti verilməlidir. Lakin sənətkar təxəyyülünün rolu da inkaredilməzdir"*. [2]

Zaman-zaman Ə.Cəfərzadə yaradıcılığı "tarixi hadisələrə yazıçı münasibəti" kontekstindən tənqid edilmişdir. Məsələn, "Cəlaliyyə" povestində Cəlaləddinin Azərbaycanı işğal etməsinin

---

[1] Горский, И.К. Польский исторический роман и проблема историзма / И.К.Горский . – Москва: Издателъство Наука, – 1963. – 264 с.

[2] Axundlu, Y. Seçilmiş əsərləri: [3 cilddə] / Y.Axundlu. - Naxçıvan: Əcəmi, - c. 2. - 2013. - 448 s.

təsviri tənqidçi V.Quliyevi razı salmamışdır. Tənqidçi Atabəy hökmdarları – Özbək, Əbubəkr və Qutluq İnancın az qala gülüş hədəfinə çevrilib, gəlmə şahzadənin isə “xalqımızın xilaskarı və müdafiəçisi” kimi təqdim edilməsinə etiraz edirdi. Burada bütün mübahisələr tarixi gerçəkliklə bədii həqiqətin mahiyyətinin necə başa düşülməsindən doğur. Həm deyirik, tarixi mövzuda yazılmış əsər tarixilik baxımından “dəqiq” olmalıdır, həm də yazıçı bədii təxəyyülünə sərhəd çəkirik. Fikrimizcə, bu, hər şeydən əvvəl, yazıçının tarixi mövzunu işləyərkən söykəndiyi metoddan irəli gəlirdi.

Akad. Z.Bünyadov və Ə.Rəhimov “Tarixi həqiqətlər... yoxsa təhriflər” məqaləsində ən çox tarixi romanlar müəllifi kimi tanınan Ə.Cəfərzadənin “Bakı-1501” romanına da münasibət bildirirlər. Bu romanda müəlliflər tarixi hadisələrlə bağlı yer və şəxs adlarının müxtəlif şəkildə təqdim olunmasını tənqid edirlər. Şah İsmayılla bağlı hər üç romanda (Ə.Cəfərzadə “Bakı-1501”, Ə.Nicat “Qızılbaşlar”, F.Kərimzadə “Çaldıran döyüşü” – A.B.) Taclı xanımın şəxsiyyəti ilə bağlı ziddiyyətli fikirlərin olduğunu bildirən müəlliflər

bu halın nəticədə dolaşıqlığa səbəb olmasını qeyd edirlər.[1] Ə.Cəfərzadənin romanında Bakıda Qoşa Qala qapısının adının çəkildiyini bildirən müəlliflər mənbələrə istinadən həmin darvazanın XIX əsrə aid olduğunu bildirirlər.

Ə.Cəfərzadənin “Bakı-1501” romanı ilə bağlı tənqidçi Qulu Xəlilov bu barədə istənilən qədər tarixi mənbə və məlumatların olmasını xatırladaraq razı qalmadığı başlıca faktorları qeyd edir. Fikrimizcə, tənqidçinin *“...əsəri oxuduqca biz tarixdən, dərinliklərdən fəaliyyəti hamıya aydın olan Xətainin əvəzinə tamam başqa xarakterli, başqa səciyyəli bir ortamla qarşılaşırıq”* [2] iradında ümumən tarixi romanlar üçün qeyd edilən bir tendensiya vardır. Belə ki, biz yaddaşımızdakı Xətaini bu əsərdə də görmək istəyərik. Halbuki, yaddaşımıza dərsliklərdən həkk olunmuş Xətaini görmək istəyimiz yazıçının bədii təxəyyülünü məhdudlaşdırmaq deməkdir. Hər yazıçı əgər bizə fərqli bir Xətaini təqdim edirsə, burada tarixin

---

[1] Bünyadov, Z., Rəhimov, Ə. Tarixi həqiqətlər... Yoxsa təhriflər // - Bakı: Azərbaycan, -1989. №4, -s.164-181

[2] Xəlilov, Q. Tənqidçilik çətin peşədir / Q.Xəlilov. - Bakı: Yazıçı, - 1986. - s. 390

təhrif olunmasından daha çox, bədii interpretasiyadan söhbət gedə bilər.

Birinci fəslin "**Ə.Cəfərzadə nəsrində tarixi gerçəkliyin bədii dərkində axtarışlar**" adlanan ikinci paraqrafında yazıçının hekayə və povestləri bədii təhlil obyektinə çevrilmişdir. Belə ki, "Əzrayıl" adlı kiçik hekayəsinin "Ədəbiyyat qəzeti"ndə çap edildikdən sonra sovet senzurası tərəfindən qadağan olunmasına və ilk kitabının (1948) yandırılmasına baxmayaraq, yazıçı tarixi yaddaşa müraciət etməkdə israrlı olur. Yazılma tarixi etibarilə müharibə illərini əhatə edən hekayələrində müharibə illərində xalqın yaşadığı məşəqqətli ömrü, aclıq və səfaləti təsvir etməyə önəm verir. "Sahibsiz ev", "Şəkil", "Şəfqət bacısı", "Ana", "Pencək" və s. hekayələrində konkret tarixi faktlar gətirmədən bədii təxəyyülün gücü ilə dövrün gerçəkliyi əks olunur.

"Natəvan haqqında hekayələr" silsiləsi (1963) Ə.Cəfərzadənin birbaşa tarixə müraciətidir. Silsilənin mərkəzi obrazı Xan qızı vasitəsilə şair X.Natəvanın həyatı, taleyi və xalqın tarixi keçmişi, XIX əsr Qarabağ mühiti təsvir olunur. Dörd başlıqda toplanmış 15 hekayə ("Qırxbuğum", "Şairə", "Görüş", "Bibiheybət", "Hədiyyə", "Vergi", "Dünyaya insan gəlir" və s.) arasında vahid bir süjet xətti olmasa da, onları bir-birinə Natəvan obrazı bağlayır. Yazıçı bu obrazı müxtəlif rakurslardan – Xan, Şair, Ana və xeyriyyəçi kimi canlandırır. Əsərdə Natəvanı Füzuli yaradıcılığından bəhrələnən, əvvəlcə "Xurşid", daha sonralar isə "Natəvan" (zəif, köməksiz, xəstə) təxəllüsü ilə şeirlər yazan bir şair kimi görürük. Silsiləyə daxil olan "Hədiyyə", "Vergi" hekayələrində şairin şeirlərinin toplandığı məşhur "Gül dəftəri" adlı albom haqqında məlumat verilir. M.Əlioğlunun fikrincə, yazıçı "*Natəvanın fərdi insani keyfiyyətlərini, onun yüksək mənəvi məziyyətlərini təsirli realist lövhələr, cizgilər vasitəsi ilə ümumiləşdirməyə səy etmişdir*". [1] Silsilədə "Məclisi-üns" ədəbi məclisinin adı qeyd olunmaqla yanaşı, X.Natəvanın dövrün məşhurları Fatma xanım Kəminə, Nəvvab, Növrəs, Piran, Məmai, Fani və b. ilə münasibətinə də yer verilir. Xurşidbanu Natəvan ilə Aleksandr Dümanın baş tutmuş görüşünü (1858-1859) qələmə

---

[1] Əlioğlu, M. Böyük ana, şair və vətəndaş // - Bakı: Azərbaycan qadını, - 1964. № 4, - s. 22

alarkən yazıçı A.Dümanın “Qafqaz səfəri” əsərindən də yararlanmışdır.

Yazıçının ilk povesti “Cəlaliyyə”də (1983) hadisələr XII əsrdə yaranan Atabəylər dövlətinin getdikcə zəifləməyə və çökməyə başladığı, həmçinin yerli feodalların çəkişmələrinin davam etdiyi, xarici siyasətinin düzgün aparılmadığı bir dövrdə cərəyan edir. Əsərin əsas qəhrəmanı ədaləti, adilliyi ilə seçilən Məhəmməd Cahan Pəhləvanın qızı Cəlaliyyənin simasında yazıçı qəhrəman qadın obrazı yaradır. Həmçinin, yüksək mənəvi keyfiyyətləri ilə seçilən Türkan xatunun, Möminə xatunun, Zahidə xatunun da obrazları yaradılmışdı. Sarayda Cahan Pəhləvanın, sonra da Cəlaliyyənin etibarını qazanan və sonda öz nəfsinin qurbanı olan Aydoğmuş obrazı ilə yazıçı vətənə dönük çıxan xainlərin gec-tez pis bir aqibətlə qarşılaşacağını göstərmək istəmişdi.

Cəlaləddinlə Naxçıvan hökmdarı Cəlaliyyə arasında nikah diplomatiyasının bağlanması bəzən real, bəzən də absurd fikir olaraq qələmə alınmışdı. Bu tarixi fakt yersiz olaraq tənqidçilər tərəfindən yazıçı uydurması kimi tənqid edilmişdir. Tənqidçi Vilayət Quliyev povestin sənətkarlıq baxımından uğurlu təsir bağışladığını bildirsə də, *“tarixi faktlara etinasızlıq və onların tam sərbəst şəkildə interpretasiyası, başqa sözlə desək, Azərbaycana işğalçı kimi gələn, bir tarixi şəxsin Azərbaycan xalqının xilaskarı kimi təqdim edilməsi çaşqınlıq doğurur”* [1] qənaətinə gəlir. Bundan başqa, Atabəylər dövlətini süquta gətirib çıxarmış “tipik bir feodal” olan Cəlaləddinin Azərbaycanı işğal etməsi də tənqidçini razı salmır. Tənqidçinin bir iradı da Cəlaləddinlə Cəlaliyyənin nikahı barəsindədir. Belə ki, tənqidçi bu nikah haqqında tarixi məxəzlərdə heç bir məlumatın olmadığını bildirir. Halbuki, Şihabəddin ən Nəsəvinin akademik Z.Bünyadov tərəfindən rus dilinə tərcümə edilmiş əsərinin otuz üçüncü və səksən üçüncü fəsillərində Cəlaliyyənin Cəlaləddinlə evlənməsi faktı təsdiqlənir.[2]

---

[1] Quliyev, V. Cəlaliyyə // Ədəbiyyat və incəsənət. - 1984, 3 fevral. - s.6

[2] Шихаб ад – дин Мухаммад ан Насави. Жизнеописание султана Джалал Ад – Дина Манкбурны / Шихаб ад – дин Мухаммад ан Насави, перевод с арабского, предисловие... и указатели З.М.Буниятова. - Баку: Элм, - 1973. - 452 с.

XII əsr Azərbaycan şairi Nizami Gəncəvi ilə görüş səhnəsi də tarixi gerçəkliyə uyğun təsvir olunmuşdu. Beləliklə, "Natəvan haqqında hekayələr" silsiləsi və "Cəlaliyyə" povesti təsdiq edir ki, yazıçı keçmişi təsvir edərkən tarixin sadəcə qeydiyyatçısına çevrilmir, onu bədii təxəyyül süzgəcindən keçirərək tarixi gerçəkliklə bədii həqiqətin sintezinə nail olmağa çalışır.

İkinci fəsil **"Əzizə Cəfərzadə nəsrində tarixi hadisələrin bədii inikası"** adlanır. Bu fəslin birinci – **"Şirvan" trilogiyasında tarixilik və bədii həqiqət"** paraqrafında Ə.Cəfərzadə yaradıcılığının mərkəzində dayanan "Şirvan" trilogiyası tədqiq olunur. 70-ci illərdə yazılan bu trilogiyası ilə müəllif tarixi roman janrına qədəm qoymuş, həm də trilogiyaya daxil olan əsərlərdə Azərbaycan tarixinin bir-birinə bağlı iki yüz ilə yaxın müəyyən bir mərhələsini əks etdirmişdir. Trilogiyaya daxil olan "Vətənə qayıt" romanında XVII əsrin sonu, XVIII əsrin əvvəllərində yaşayıb-yaratmış Nişat Şirvani, "Aləmdə səsim var mənim" romanında XIX əsrin görkəmli maarifçi şairi Seyid Əzim Şirvani, "Yad et məni" romanında isə romantizmin görkəmli nümayəndəsi Abbas Səhhətin həyatından bəhs edən hadisələr öz əksini tapmışdır. Hər üç romanı birləşdirən ana xətlərdən biri də Vətən və xalq sevgisidir.

Trilogiyanı qələmə almazdan əvvəl yazıçı ənənələrinə sadiq qalaraq geniş araşdırmalar aparmış, baş vermiş tarixi hadisələr haqqında mənbələrlə tanış olmuş, həmçinin folklorumuza müraciət etmişdi. "Vətənə qayıt" romanının baş qəhrəmanı Nişat Şirvaninin həyatının müəyyən dönəmləri və mühitə xas əlamətlər paralel olaraq işlənir. Əsərin baş qəhrəmanı xalqının azadlığı uğrunda müdafiəyə qalxan, xurafat əleyhinə çıxan, həmçinin dinlərin, təriqətlərin yaratdığı ayrı-seçkiliyə qarşı barışmaz mövqeyi ilə seçilən filosof şair kimi səciyyələnir. Romanın "Qəbulə xanım" hissəsi senzura tərəfindən "lazım bilinməyən hissələr" hesab edilmiş və nəşrinə icazə verilməmişdi. Bu hissədə Salyanda hərbi ordugah tikdirən general Zimbulatovun Salyan xanı Həsən xanın həyat yoldaşı Qəbulə xanım tərəfindən öldürülməsi qeyd edilmişdi.

Trilogiyanın ikinci əsəri "Aləmdə səsim var mənim" romanı yazıçının daha da məşhurlaşmasına səbəb olur. Yazıçı ömrü məşəqqətli keçən Seyid Əzimin həyatı fonunda Şirvan mühitinin

hadisələrini təsvir edir. O, romanda qaranlıqda işıq saçan maarifpərvər bir ziyalı, həyatını xalqına sərf edən bir obraz kimi təqdim edilir. Millətin özünüdərk, özünütərbiyə probleminin həll olunmasında məktəbin, maariflənmənin xüsusi rolu olduğunu dərk edir və Şamaxıda dünyəvi elmlərin tədris olunduğu ilk məktəbi açmağa nail olur. Seyid Əzim oğlanlarla yanaşı qızların da təhsil almasına kömək etmiş, əsrlərlə millətin beyninə yeridilən sünni-şiə məzhəb ayrı-seçkiliyini aradan qaldırmaq istəmiş və övladlarının adını Ayişə, Ömər və Osman qoymuşdu. Əsərin sonunda Seyid Əzimin ölümünə xalqı cəhalətdə saxlamaq istəyən mollaların, abidlərin səbəb olduğunu görürük.

Trilogiyanın sonuncu "Yad et məni" romanında hadisələr Rusiya və Azərbaycanda XX əsrin əvvəllərində ictimai fikrin tərəqqi etdiyi bir dövrdə cərəyan edir. Əsərin əsas qəhrəmanı A.Səhhətin həyatı və fəaliyyəti kontekstində dövrün Şirvan mühiti də dolğun şəkildə əks olunur. Müəllif A.Səhhət obrazına üç prizmadan yanaşır; şair, tərcüməçi və həkim. Romanda A.Səhhətin M.Ə.Sabir və M.Hadi ilə yaxın dostluq əlaqələrinə də yer verilir. Müəllif hər üç dostun düşüncəsini əks etdirməklə maarifin zəruriliyi məsələsini ortaya qoyur. A.Səhhətlə M.Ə.Sabir bu məsələyə yüksək həssaslıqla yanaşmış, cəmiyyətin mövcud durumu ilə bağlı təhlillər apararaq, xalqın xeyrinə müəyyən tədbirlər görmüşdülər. "Təzə şeir necə olmalıdır" məsələsi üzərində düşünən A.Səhhət şeirin ana dilində olması ilə yanaşı dilinin aydın və anlaşıqlı olmasının tərəfdarı kimi çıxış edir. Ədiblərin dövrün mətbu orqanları ilə sıx əməkdaşlığı məsələsinə toxunularaq qəzet və jurnalların xalqın həyatında zəruri amil olduğu bildirilir.

Romanda bir çox tarixi şəxsiyyətlərin obrazı da vardır ki, bu da əsərin tarixə bağlılığını artırır. Çünki tarixi şəxsiyyətlər həm də mütərəqqi ideyaların daşıyıcısı olur. Bunu nəzərdə tutan ədəbiyyatşünas f.e.d., prof. Təyyar Salamoğlu yazır: *"Tarixi şəxsiyyətlərin bədii obrazının sənət dili ilə yenidən canlandırılması keçmiş epoxanın açılmamış "sirlər"inin üzə çıxarılmasına, tarixi dövr haqqında müasir oxucunun bilik və məlumat dairəsinə, milli yaddaşın möhkəmlənməsinə ciddi təkan verir".* [1] Tədqiqatçı bu

[1] Salamoğlu, T. Müasir Azərbaycan romanının poetikası / T.Salamoğlu. – Bakı: Elm, – 2005. – 280 s.

fikrində haqlıdır; ona görə ki, tarixi şəxsiyyətlər həm də xalqın milli tarixi yaddaşını özündə yaşadır.

Ə.Cəfərzadənin trilogiyası bu romanla bitsə də, buraya daxil olan mövzuları davam edir. Yəni həm Şirvan mühiti, həm də ədəbi şəxsiyyətlərin obrazı yazıçının "Sabir" romanında da davam edir. Əslində Sabir obrazına yazıçının daha əvvəl yazdığı "Aləmdə səsim var mənim" (1972) və "Yad et məni" (1980) romanlarında epizodik şəkildə rast gəlirik. Bu mənada, yazıçı "Sabir" romanı ilə Şamaxı ədəbi mühitini və bir-birinə yaxın zamanların ədəbi şəxsiyyətlər mövzusunu tamamlamış olur.

Roman şairin uşaqlıq, gənclik və ömrünün son günlərinədək olan bütün mərhələləri əhatə edir. Sabirin mühiti, bu mühitdə ona olan münasibət, şeirlərinin mövzu dairəsi, səyahəti, "Molla Nəsrəddin" jurnalı da daxil olmaqla bir çox mətbu orqanlarla əlaqəsi, ziyalılarla yaxınlığı pedaqoji istiqamətdə atdığı addımları və s. gerçəkliklə əks etdirilir. Yazıçı Sabirin bir şair kimi formalaşmasında müəllimi Seyid Əzim Şirvaninin böyük rolu olduğunu bildirir. Sabir bir müddət Seyid Əzimin açdığı yeni tipli "Üsuli-cədid" məktəbinə getmiş, lakin atasının işlərinin zəifləməsi səbəbi ilə məktəbi tərk etmişdi. Sabir Şamaxıda "Ümid" adlı yeni tipli məktəb açmağa nail olsa da, həm maddi, həm də göstərilən təzyiqlər səbəbindən həmin məktəb bağlanmışdı. Sabirin sonrakı fəaliyyətini Bakıda davam etdirdiyini görürük. Burda da rahat ömür sürə bilməyən şair ağır xəstəlikdən sonra vəfat etmişdi.

Beləliklə, Ə.Cəfərzadə "Şirvan" trilogiyası və buraya daxil olan "Sabir" romanı ilə Şirvan mühitinin bir neçə yüzillik bədii mənzərəsini yaratmışdır. Bu silsilə üzərində aparılan araşdırmalardan məlum olur ki, müəllif dövrün hadisə və xarakterlərini yaradarkən tarixiliyə və bədii təxəyyülün sintezinə üstünlük vermişdir.

"Şirvan" trilogiyası ilə bağlı əldə olunmuş nəticələr "Əzizə Cəfərzadə romanlarında Şirvan mühiti" adlı məqalədə öz əksini tapmışdır .[1]

İkinci fəslin **"Müxtəlif tarixi hadisələrin sosial, bədii dərki problemi"** adlanan ikinci paraqrafında Ə.Cəfərzadənin tarixi

[1] Babazadə, A. Əzizə Cəfərzadə romanlarında Şirvan mühiti // - Bakı: Filologiya məsələləri, - 2018. № 13, -320-328

romanlarında bioqrafik, etnoqrafik və tarixi aspektin üstünlük təşkil etdiyi bildirilir. Ə.Cəfərzadə tarixi janrda yazdığı "Hun dağı" əsərində Azərbaycan tarixinin ən qədim dövrlərindən birini əks etdirir. Povest türklərin möhtəşəm və əzəmətli tarixi keçmişində dərin izləri olan, Uzaq Şərqdən Qərbi Avropaya qədər yayılan hunlar haqqındadır. Əsərdə bədii tədqiqat obyekti kimi götürülmüş hunların tarixi keçmişindən, parçalanmasından, köçmələrindən, dini inancları, toy, yas və s. bağlı adət-ənənələrindən, yaşam tərzindən, digər türk tayfaları ilə birləşmələrindən və s. bəhs olunur.

Yazıçının bu mövzuya müraciəti təsadüfi deyildi. Məlumdur ki, sovetlər dönəmində türklərin tarixinə dair əsassız fikirlər söylənilmiş, onların Azərbaycan ərazisinə gəlişi qəsdən çox sonralara çəkilmişdi. Digər türk tayfaları kimi (kimmerlər, saklar, xəzərlər, peçeneqlər, qıpçaqlar və s.), hunlar da Azərbaycan xalqının etnogenizində mühüm rol oynamışdır. Buna görə də povest ulu keçmişimizi öyrənmək baxımından aktualdır. Hunların gəlməsi tarixi faktdır və yazıçı bu faktı bədiiləşdirmək istəmişdir. Özləri haqqında heç bir yazılı mənbə qoymayan, yalnız arxeoloji dəlillər və Çin mənbələrinə müraciət əsasında öyrənilən hunlar haqqında əsər yazmaq özü çətindir. Çünki, tarix uzaqlaşdıqca yazıçıya tarixi dəlil-fakt tapmaq çətinləşir. Ona görə Əzizə xanım bədii təxəyyülə üstünlük verərək tarixi faktları keçmişi özündə əks etdirən bayatılarla, coğrafi adlarla zənginləşdirmiş, o dövr türk dili elementlərini istifadə etməklə Azərbaycan türklərinin keçmişini təsvir etməyə nail olur.

Müstəqillik dövründə qələmə aldığı "Bəla" povestində tayfabazlıq-partiyabazlıq və sünni-şiə məsələsinə geniş yer verilir. Əsərdə diqqəti cəlb edən digər bir məsələ hökmdar və xalq problemidir. Yazıçı Azərbaycan tarixində simvolik məna daşıyan otuz yeddi rəqəmini əbəs yerə xatırlatmır. Otuz yeddi nəinki repressiya dövrü ilə əlaqəli bir rəqəm olmuş, eyni zamanda I Şah İsmayıldan sonra onun vahid dövlət adı altında birləşdirdiyi tayfaların bölünməsini simvolizə edir. Buna görə də, mövzu həm aktuallığı, həm də partiyalararası siyasi çəkişmələrin baş verdiyi bir dönəmə bənzərliyi baxımından maraqlıdır. II Şah İsmayıldan sonra vaxtilə I Şah İsmayılın qurduğu mərkəzləşmiş dövlət düzgün

idarəçiliyin olmaması və tayfa başçılarının öz maraqlarını qoruması səbəbindən əvvəlki qüdrətini zəifləyərək tamamilə itirmişdir. Povestdə Məhəmməd Xudabəndənin (I Təhmasibin böyük oğlu, Şah İsmayıl Xətainin nəvəsiydi – A.B.) hakimiyyət illərində Səfəvilər dövlətində cərəyan edən hadisələr, idarəçiliyin onun yoldaşı Xeyrənisa bəyimin əlinə keçməsi, farsmeyilli qüvvələrin sarayda üstünlük təşkil etməsi, təriqətbazlıq və s. öz əksini tapmışdır. Yazıçının qələmə aldığı tarixi faktlar əsasən tarixi mənbələrlə üst-üstə düşür.

Ə.Cəfərzadənin "Zərrintac-Tahirə" romanı teoloji mövzuya həsr olunub. Əsər 1848-1852-ci illərdə İranda baş vermiş Babillər hərəkatının məşhur nümayəndəsi Zərrintac Tahirənin (Qürrətüleyn (*"gözün nuru", "əziz övlad"*) də adlanmışdı – A.B.) həyatını və mübarizəsini əks etdirir. Yazıçının məqsədi sadəcə azərbaycan türkü Qürrətüleyni tanıtmaq olsa da, bəzi məqamlarda babilik haqqında məlumat da verməli olmuşdur.

"İşığa doğru" (1998) romanını "Zərrintac-Tahirə"nin davamı hesab etmək olar. Romanda Babilər hərəkatının davamı Bəhailərdən söhbət açılır. Tarixi-fəlsəfi məzmuna malik bu romanı qələmə alarkən yazıçı bəhailiyin tarixinə və fəlsəfəsinə dair dərin araşdırmalar aparmışdır. Ən əsası, müəllif burada hadisələrdən daha çox vəziyyətləri təsvir etməyə üstünlük verir. Görünür, buna görə prof. N.Qəhrəmanlı əsəri *""Gülüstandan öncə" romanından fərqli olaraq daha çox vəziyyətlər romanı"* adlandırır.[1] Sadə, axıcı dilə malik olan romanda Bəhailiyin tarixinə və fəlsəfəsinə müraciət olunur. Hərəkatın yaradıcısı Bəhaullah, onun cərgəsinə qoşulan Molla Sadıq, Babilər hərəkatının görkəmli nümayəndəsi Ətəullahla bağlı səhifələrdə tarixi gerçəklik üstünlük təşkil edir.

Beləliklə, "Hun dağı", "Zərrintac Tahirə", "İşığa doğru" kimi romanlarında müxtəlif dövr və hadisələri qələmə alan yazıçı tarixi faktların, hadisələrin təsvirində gerçəkliyə əməl etməyə çalışmışdır. Tarixi əsərlərdə mübahisə doğuran sənətkarın tarixi gerçəkliyə əməl etməsi məsələsi Ə.Cəfərzadə yaradıcılığından da yan keçməmişdir, lakin bütün hallarda yazıçı bu əsərlərində tarixi hadisələrin ruhunu

[1] Qəhrəmanlı, N. Ədəbiyyat və əbədiyyat (Ədəbi tənqidi məqalələr) // N.Qəhrəmanlı. - Bakı, - 2009. - 384 s.

qoruyub saxlaya bilmiş, obrazların hərəkət və düşüncələrini, arzularını, əməllərini inandırıcı şəkildə təsvir etmişdir.

**“Ə.Cəfərzadə yaradıcılığında dövrün və qəhrəmanın xarakteri”** adlı üçüncü fəslin **“Roman və povestlərində dövrün və tarixi şəxsiyyətlərin obrazı”** adlanan birinci paraqrafında yazıçının roman və povestləri əsasında dövrün və qəhrəmanın xarakteri təhlil edilir. Ə.Cəfərzadənin tarixi mövzuda yazdığı əsərlər digər müəlliflərin tarixi əsərlərindən yalnız mövzu və problematika baxımından deyil, üslub, tarixə baxış, gerçəkliklə bədii təxəyyülün sintezi baxımından da fərqlənir.

Ə.Cəfərzadə nəsrində Azərbaycan ədəbiyyatında, tarixində iz qoyan ədəbi şəxsiyyətlərin obrazlarının yaradılması davamlı proses olmuşdur. X.Natəvan (“Natəvan haqqında hekayələr” silsiləsi, 1963), N.Şirvani (“Vətənə qayıt”, 1977), S.Ə.Şirvani (“Aləmdə səsim var mənim”, 1972-1978), (“Yad et məni”, 1980), Ş.İ.Xətai (“Bakı-1501”, 1981), Sabir (“Sabir”, 1989), Z.Şirvani (“Eldən-elə”, 1992), Z.Tahirə (“Zərrintac-Tahirə”, 1996), M.Füzuli (“Eşq sultanı”, 2005) Ə.Cəfərzadə nəsrində yer alan ədəbi şəxsiyyətlərdir. Qeyd olunan ədəbi şəxsiyyətlər içərisində M.Füzulinin Ə.Cəfərzadə yaradıcılığında xüsusi rolu olmuşdur. Yazıçı əsərlərinin böyük bir hissəsində dahi Füzulini yad edir, onun yaradıcılığına müraciət edərək qəzəllərindən nümunələr gətirir.

Şübhəsiz, ədəbi şəxsiyyətlər xalqın taleyində oynadığı rola görə, həm də tarixi şəxsiyyət olaraq tanınmışdır. Lakin yazıçının elə əsərləri də var ki, burada dövrün xarakterini və tarixi qəhrəmanlarını önə çıxarır. “Bakı-1501” (1981) tarixi romanının baş qəhrəmanı Şah İsmayıl obrazına Sovetlər dönəmində ilk müraciət edən Ə.Cəfərzadə olmuşdur. Şah İsmayıl Xətai obrazına müraciət yazıçı üçün həm də qaçılmaz bir zərurət idi. Çünki yazıçı artıq bir neçə tarixi əsərində daha çox ədəbi şəxsiyyətlərin obrazını yaratmışdı, indi isə tarixin xalq, millət üçün önəmli yeni bir dönəminə, tarixi şəxsiyyətinə üz tutmaq lazım gəlirdi. Azərbaycanın gələcək taleyini bəlirləmək üçün Şah İsmayıl Xətai kimi tarixi şəxsiyyətlərə üz tutmaq da buradan irəli gəlirdi.

“Eldən-elə” əsərinin süjet xəttinin əsasında da dövrün və qəhrəmanının xarakterinin yaradılması durur. Arxivindəki səyahət

dəftərindən məlum olur ki, yazıçı əsərin birinci hissəsini 1986-cı ildə yazmağa başlasa da, 1988-ci ildən sonra bitirmişdi. Əsər 1992-ci ildə çap edilir. Yazıçı bir çox xarici ölkələrdə (Afrika ölkələri, İraq, İran, Türkiyə, Orta Asiya, Hindistan, Malaziya) səyahətdə olaraq səyyahın gəzdiyi yerlərləri qələmə alır. Əsər əvvəlcə "Xoş gördük, səyyah" adlandırılıb. Demək lazımdır ki, Ə.Cəfərzadənin digər tarixi romanlarına nisbətən, bu əsərin baş qəhrəmanı Zeynalabdin Şirvani o qədər də tanınmırdı. Yazıçı Zeynalabdinin gəzdiyi yerlər, onların mədəniyyəti, geyimləri, adət-ənənələri, yaşam tərzi ilə yaxından tanış olmuş, şəhərlərin adı, xüsusiyyətini elə onun öz qeydlərindən öyrənmişdi.

Ə.Cəfərzadə "Zərrintac-Tahirə" romanında azadlıq müctəhidi olan Qürrətüleynin obrazını yaradarkən yaşadığı mühit kontekstində təsvir etmişdir. Yazıçı Qürrətüleynin mübarizəsini reallıqla göstərmək üçün mühitin özünü canlandırmalı olur. Bu mühitdə sözü keçən adamlar dindən bir vasitə kimi istifadə edir, xalqın oyanmasına imkan vermirlər. Cəmiyyətdə səslənən hər hansı bir yenilik lənətlə qarşılanır və onu edən adam hər an daş-qalaq olunmaq təhlükəsi qarşısında qalır. Qürrətüleynin məhz bu cür şəraitdə mübarizə aparması onu bir qəhrəman kimi ucaldır. Yazıçı qəhrəmanını Babilər hərəkatının tərəfdarı, istedadlı şair, ana, yeri gələndə alim, filosof, kamil müəllim kimi təqdim edir.

Ə.Cəfərzadənin sonuncu "Eşq sultanı" (2005) adlı romanı söz ustadı Füzuliyə həsr edilib. Səhhəti ilə əlaqədar, əsər müəllif tərəfindən əlyazma şəklində qələmə alınmayaraq maqnitafona diktə edilmiş, oğlu tərəfindən kağıza köçürülmüşdü. Romanda demək olar ki, şairin ömrünün bütün mərhələləri qələmə alınır. Füzulinin həyatı haqqında qeydlər mənbələrdə çox az olduğundan onun haqqında məlumatlar əsasən şairin divanı, şeirləri və "Leyli və Məcnun" poeması vasitəsilə əldə edilmişdir. Yazıçı Füzulini türkəsilli Bayat qəbiləsinə mənsub olan biri kimi verir. Füzulinin ömrünün sonunadək İraqda yaşaması məsələsinə gəlincə, yazıçı bu səbəbin onun atasının əhdi ilə bağlı olduğu qənaətinə gəlir. Doğma vətənindən uzaq yaşayıb hər üç dildə şeir yazmasına rəğmən, Füzuli hər zaman türk düşüncəsində olmuşdu. Əslən şirvanlı olduğuna əsaslanaraq müəllif onu Məhəmməd Füzuli Şirvani adlandırır.

Romanda ədəbi şəxsiyyətlərlə (Füzuli, Yusif, Xəyali və b.) yanaşı, tarixi şəxsiyyətlərin də adlarına rast gəlirik. Yavuz Sultan Səlimlə müqayisədə Sultan Süleyman obrazı müsbət planda işlənmiş, əsl fateh kimi təqdim olunmuşdur. Həmçinin onun "Mühibbi" təxəllüsü ilə şeirlər yazdığı da bildirilir.

Ə.Cəfərzadə tarixi hadisələrin və şəxsiyyətlərin təsvirində tendensiyalı hərəkət etməmiş, həm dövrü, həm də tarixi şəxsiyyətləri bütün ziddiyyətləri ilə təsvir etməyə çalışmışdır. Şah İsmayıl Xətainin xarakterinin təsvirində bunu aydın görmək olar. Tarixi gerçəkliyi gözləmək üçün yazıçı dövrün xarakterini müxtəlif yollarla göstərir. Bunlar içərisində xalqın həyatını, psixologiyasını, məişətini gerçəkliyə uyğun təsvir etmək başlıca yer tutur. Bu iki amilin gözlənilməsi dövrün, cəmiyyətin obyektiv qanunauyğun inkişafını və zamanın ruhunu göstərmək üçün ən yaxşı vasitə olmuşdur.

Üçüncü fəslin **"Yaxın hadisələrin tarixi-ictimai ziddiyyətləri və bədii gerçəklik"** adlanan ikinci paraqrafında qeyd olunur ki, yaxın tarixi hadisələrin təsvirinin sənətkar üçün öz çətinlikləri olmuşdur. Çünki uzaq tarixə nisbətən yaxın tarix dövrün ideoloji inhisarında idi. Bu baxımdan həmin dövrün tarixi xronikasının dinamik inkişafını və dialektikasını olduğu kimi təsvir etmək yazıçıdan böyük cəsarət tələb edirdi. Müstəqillik dövründə yazıçı üçün belə bir imkan yaranır. "Gülüstandan öncə" (1992-1993) romanının yazılması bu boşluğu aradan qaldırmaq məqsədi daşıyırdı. Roman "Gülüstan" müqaviləsi bağlanmazdan əvvəlki dövrü əks etdirir. Yazıçı bununla demək istəyir ki, əslində ruslar tərəfindən Azərbaycanın işğalı "Gülüstan" (1813) və "Türkmənçay"dan (1828) öncə "Kürəkçay" (1805) müqaviləsi ilə başlamışdı.

Romanın baş qəhrəmanı Şamaxı xanlığını otuz ildən çox (1787-1820) idarə edən, hər zaman xanlığın müstəqilliyinin qorunmasına çalışan Mustafa xandır. Romanda hadisələr Mustafa xanın əhatəsində cərəyan edir; o, ağıllı, tədbirli, uzaqgörən, xaraktercə ziddiyyətli bir insan kimi göstərilir. Rusiyanın hər təklifi ilə razılaşmadığına və Kürəkçay müqaviləsinə ilk dəfə qol çəkmədiyinə görə Rusiya üçün şübhəli sayılmış və beləliklə, bütün diqqətləri üzərinə cəmləmişdi. Vaxtilə Qacara, Zubova və bir neçə yerli xanlara qalib gələn Mustafa xanın getdikcə gərginləşən

vəziyyəti görərək günahsız insanların qanının axıdılmaması üçün müqaviləni imzalaması zahiri itaətdən başqa bir şey deyildi.

Ə.Cəfərzadənin "Xəzərin göz yaşları" (2001) romanında xalqın ən yaxın dövrünü, tarixi yaddaşına yazılmış repressiya hadisələrini əks etdirir. Bu, yazıçının sağlığında dərc olunan sonuncu əsəridir. Roman çoxlarına bəlli olmayan Stalin siyasətinin 38-ci il hadisələrindən bəhs edir. Həmin hadisələrlə bağlı tarixi mənbələrdə az məlumatlara rast gəlinir. Bəzən bu tarixi dönəmə toxunulmamış, bəzən də qismən toxunulmaqla üzərindən keçilmişdir. 38-ci ildə baş vermiş hadisələrin təsvirində tarixi yaddaşla yazıçı təxəyyülü birgə iştirak edir. Tarixilik yazıçının həmin dövrdə yaşaması, tanıdığı, şahidi olduğu adamların faciəsini təsvir etməsindədir. Romandakı Baxış, Ağanisə, Məşədi Gülsüm kimi obrazlar da gerçəkçi insan obrazlarıdır. Əsər mənəvi itkilərdən, genetik fonda dəyən zərərdən bəhs edir. Vaxtilə cənubdan Bakıya neft mədənlərində, eləcə də digər işlərdə işləməyə gələn əslən Cənubi Azərbaycandan olan Azərbaycan türkləri Sovet pasportunun olmaması bəhanəsi ilə yenidən cənuba köçürülürlər. Stalin İran rəsmi dairələrində çalışmağa başlayan almanlara casus gözü ilə baxdığı kimi, İran tərəfi də Azərbaycandan İrana sürgün edilənlərə casus gözü ilə baxmışdır. 38-ci il hadisələri ilə bağlı həyat həqiqətinin bədii inikası olan bu əsər xalqın tarixi keçmişini əks etdirir.

"Rübabə Sultanım" (2001) əsəri müəllifin öz ailəsinə həsr edilmişdir. O ailəyə ki, onlar da repressiyaya məruz qalmışlar. Avtobioqrafik səciyyə daşıyan əsərdə bir çox tarixi məlumatlar da öz yerini alır. Yazıçının və qardaşlarının qeydləri əsasında ərsəyə gələn əsərdə bir çox mətləblərə toxunulur. Romanda ayrı-ayrı məqamlarda sovetlər dönəmində xalqımızın başına gətirilən bəlalara toxunulur. Məlum olur ki, üzdə xalqı xoşbəxt gələcəyə aparmaq devizini əldə rəhbər tutan bolşeviklər əslində xalqı əsarət altında saxlamaq, onu öz soykökündən ayırmaq, adət-ənənələrini unutdurmaq siyasəti yeritmişlər. Həmin siyasətin yerinə yetirilməsində ruslara ermənilər canfəşanlıqla kömək etmişdilər. Torpaqlarımızın yadellilər tərəfindən mənimsənilməsinə səbəb olan "Kürəkçay", "Gülüstan" və "Türkmənçay" müqavilələri xatırlanır, haqqında bir o qədər də məlumata rast gəlinməyən 38-ci il hadisələrinə toxunulur. Müəllif

əvvəlki əsərlərində olduğu kimi, bu əsərlərində də tarixi hadisələrin təsvirində sənədlər və bədii təxəyyüldən paralel şəkildə sənətkarlıqla istifadə etmişdir.

Dissertasiyanın nəticə hissəsində əldə edilmiş qənaətlər ümumiləşdirilmişdir. Dissertasiyada əldə edilmiş nəticələrin bəziləri bunlardır:

–İlk kitabının senzuraya məruz qalmasına, yandırılmasına baxmayaraq, Ə.Cəfərzadə tarixi mövzudan əl çəkməmiş və yaradıcılığı boyu davam etdirmişdir.

–"Natəvan haqqında hekayələr" silsiləsinin kiçik ədəbi-tarixi məzmunlu hekayələrində tarixiliklə bədii gerçəklik paralel olaraq təsvir edilir.

–Sovetlər dönəmində mövcud ideologiyanın əhalini soykökündən uzaq tutmaq, onun milli yaddaşını unutdurmaq səyləri Ə.Cəfərzadənin tarixi mövzuya müraciəti ilə zəifləyir.

–Ə.Cəfərzadə V-VI əsrdən başlamış müasir dövrümüzə qədər baş vermiş tarixi hadisələri səmərəli şəkildə qələmə almışdı.

–Ə.Cəfərzadənin tarixi roman və povestləri Azərbaycan tarixinin və eləcə də ədəbiyyat tarixinin öyrənilməsi, tədrisi üçün çox mühüm bir mənbələrdəndir.

–Ə.Cəfərzadə əsərləri vasitəsilə tarixi şəxsiyyətləri tanıtmağı sovetləri mədh etməkdən üstün tutmuşdu.

**Tədqiqatın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xarici ölkələrdə dərc edilmiş aşağıdakı məqalələrində və iştirak etdiyi konfransların materiallarında öz əksini tapmışdır:**

1. Babazadə, A. Əzizə Cəfərzadənin "Natəvan haqqında hekayələr" silsiləsində Xan qızı obrazı // – Bakı: Filologiya məsələləri, – 2017. № 7, – s. 275-284.
2. Babazadə, A. Əzizə Cəfərzadənin "Xəzərin göz yaşları" əsərində repressiyanın inikası // – Naxçıvan: AMEA Naxçıvan bölməsi, Axtarışlar, – 2017. №4, – s. 43-48.
3. Babazadə, A. Əzizə Cəfərzadənin "Cəlaliyyə" povestində tarixi və bədii gerçəkliyin inikası // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2018. № 1, – s. 80-86

4. Babazadə, A. Mustafa xanın taleyi tarixi və bədii kontekstdə // – Bakı: Elmi əsərlər, – 2018. № 1,– s.154-161
5. Babazadə, A. Sabir obrazında tarixi gerçəklik və bədii təxəyyül // – Bakı: Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, – 2018. №4, – s. 364-368
6. Babazadə, A. Əzizə Cəfərzadə nəsrində tarix və bədii təxəyyülün yeri // Azərbaycanşünaslığın aktual problemləri mövzusunda IX Beynəlxalq elmi konfrans, – Bakı: BSU, – 3-4 may, – 2018, – s. 59-61
7. Babazadə, A. Əzizə Cəfərzadə romanlarında Şirvan mühiti // Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət mövzusunda gənc alimlər forumu, – Bakı: – 24 oktyabr, – 2018, – s. 8-15
8. Babazadə, A. Əzizə Cəfərzadə hekayələrində tarixi gerçəkliyə yeni baxış // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransı, – Bakı: ADPU, – 22-23 noyabr, – 2018, – s. 129-132
9. Бабазаде, А. Отражение действительности и художественной правдивости в исторических романах // Киев: Мова I культура, –2018. Выпуск 21, том I (190), – с.118-125.
10. Babazadə, A. Əzizə Cəfərzadə nəsrində mənbə və bədii təxəyyüldən istifadə // Qlobal tendensiyalar və müasir Azərbaycan mövzusunda Respublika elmi konfransı, – Mingəçevir: MDU, – 7-8 may, – 2018, – s. 501-503
11. Babazadə, A. Əzizə Cəfərzadə romanlarında Şirvan mühiti // – Bakı: Filologiya məsələləri, – 2018. № 13, – s. 320-328
12. Babazadə, A. Əzizə Cəfərzadənin “Hun dağı” povestində tarixi yaddaşın təsviri // – Bakı: Elmi Xəbərlər // – 2018. № 2, – s. 55-63
13. Babazade A. Azize Ceferzade nesrinde tarihi konunun önemi // - Uluslararası Dergi Karadeniz Sosyal Bilimlər Sempozyumu, – Tiflis-Gürcüstan, – 2019, – 24-26 yanvar, – s. 52
14. Babazadə, A. “Zərrintac-Tahirə” romanında Babilər hərəkatı və qadın azadlığı // –Bakı: Azərbaycan ədəbiyyatşünaslığı // – 2019. № 2, – s. 239-245.

15. Babazadeh A. Problems of development of russian and azerbaijani historical novels at the initial stage of social realism // İndia: Asian Journal of science and technology, – 2019. – Vol. 10, Issue, 02, – pp. 9386-9390.
16. Babazadə A. Əzizə Cəfərzadə nəsrində ədəbi şəxsiyyətlərin tərənnümü // Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı // – Bakı: Mühəndislik Universiteti, – 29-30 aprel 2019, – s. 1109-1112.
17. Babazadə Ayna. “Cəlaliyyə” romanı ədəbi tənqiddə // Naxçıvan: Mədəniyyətlərin qovuşduğu məkan mövzusunda beynəlxalq konfrans. Naxçıvan: Naxçıvan Universiteti, – 22-23 oktyabr 2020, – s. 249-252
18. Babazadə, A. “Bakı-1501” romanı ədəbi tənqiddə // - Naxçıvan: Elmi əsərlər, – 2020. № 3, – s. 122-127.

Dissertasiyanın müdafiəsi 24 dekabr 2021-ci il tarixində saat 14:00 AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED1.31 - Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh., İstiqlaliyyət küçəsi 53. AZ1001. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "23" noyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.11.2021

Kağızın formatı: A5

Həcm: 37341

Tiraj: 100